**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.BAKIXANOV ADINA TARİX İNSTİTUTU**

*Əlyazması hüququnda*

**FİRUDİN ƏLİ OĞLU ABBASNEJAD**

# TƏBRİZİN "RƏBİ-RƏŞİDİ" ELM VƏ MƏDƏNİYYƏT MƏRKƏZİNİN AZƏRBAYCAN VƏ İRAN TİBB ELMİNDƏ ROLU

İxtisas: 5506.00 - İxtisaslaşdırılmış tarix

Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya işinin

# A V T O R E F E R A T I

**BAKI – 2015**

*Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun "Tərcümə və informasiya" şöbəsində yerinə yetirilmişdir.*

**Elmi rəhbər:**

**Tarix üzrə elmlər doktoru F.U.Ələkbərli**

**Rəsmi opponentlər:**

**Əczaçılıq üzrə elmlər doktoru, prof. T.A.Süleymanov**

**Tarix üzrə fəlsəfə doktoru T.H.Nəcəfli**

**Aparıcı müəssisə: AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun "Mənbəşünaslıq və yazılı abidələrin tədqiqi" şöbəsi**

Müdafiə «29___» «_04___» 2015-ci il tarixdə saat ____-də Azərbaycan Milli Elmlər Akademiyasının A.Bakıxanov adına Tarix İnstitutunun nəzdində tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiyaların müdafiəsini keçirən D.01.161 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** Az-1143. Bakı şəhəri, H.Cavid prospekti, 115

Dissertasiya ilə AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutunun Arxivində tanış olmaq olar.

Avtoreferat «____» ___________ 2015-ci ildə göndərilmişdir.

D.01.161 Dissertasiya Şurasının
elmi katibi, tarix üzrə fəlsəfə doktoru: **C.Ə.Bəhramov**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Müasir Azərbaycan milli tarixşünaslığı üçün tədqiqi mühüm elmi və siyasi aktuallıq kəsb edən problemlərdən biri orta əsrlər dövründə Azərbaycan və Ön Asiya xalqlarının siyasi, mədəni və sosial-iqtisadi həyatında müstəsna rol oynamış elmi mərkəzlərin fəaliyyət tarixinin tədqiqi məsələsidir. Orta əsrlər tarixinin X-XII və XIII-XIV əsrlər dövrləri Azərbaycan və Ön Asiya ölkələri tarixində siyasi, sosial-iqtisadi və mədəni inkişaf xüsusiyyətləri baxımından xüsusi məsələ sayılır. Əgər X-XII əsrlər bu ölkələrin tarixində bütün sahələrdə intibah dövrü hesab olunursa, XII-XIII əsrlər monqol hücumu və işğalı dövrü sayılır. Monqol işğalının vurduğu ağır zərbələrə baxmayaraq, intibah dövründə olduğu kimi Ön Asiya regionunda elm və mədəniyyət mərkəzinə çevrilən Azərbaycan, xüsusilə də Təbriz şəhərinin bu prosesdə aparıcı rola malik olması diqqəti cəlb edir. Qeyd etmək lazımdır ki, monqol əsilli hökmdarlar dövlət qurmazdan və digər torpaqları ələ keçirməzdən əvvəl yaşam ehtiyacları, məişət məsələləri və qonşularla rəftar baxımından tarix, münəccimlik, tibb kimi elmlərə və ovçuluq və hərb peşələrinə xüsusi əhəmiyyət verirdilər. Onlar İran və Azərbaycan torpaqlarına ayaq basanda bu geniş bir əraziyə və qədim mədəniyyətə malik ölkələrdə hökmranlıq etmək üçün onun xalqının mədəni dəyərləri və inanclarının təsiri altına düşmək məcburiyyətində qaldılar. İslam dininin qəbul edilməsi monqollar üçün burada yaşayan yerli xalqlarla münasibət qurmaq və iş birliyinə girmək istiqamətində atılan ilk addımlardan idi. Xacə Nəsirəddin Tusi, Rəşidəddin Fəzlullah Həmədani, Cuyənin qardaşları və s. bu kimi alimlərin biliklərindən istifadə etmək monqollar tərəfindən nümayiş olunan dözümlülük və yumşaqlığın bariz nümunəsidir. Həmin dövrlərdə bütün tədris işləri qələm əhli olan yerli əhalinin əli ilə həyata keçirilirdi. Elmi sahələrdə inkişaf və tərəqqiyə nail olmaq yolunda monqolların dini tolerantlığı və yumşaq münasibətini nəzərə almamaq olmaz. Qazan xan hicri qəməri təqvimilə 694-cü ilin sonunda (miladi 1295-ci il, Novruz bayramı ilə eyni vaxta təsadüf edir) Elxanilər hakimiyyətinin başına gəldi və hakimiyyətinin ilk günündə monqolların İslam dinini qəbul etmələri barədə fərman verdi. Bununla da dini hökmlər və ədalət prinsipləri rəhbər tutulmağa başlandı.

Həmin tarixdən "Şənbi-Qazan" və "Rəbi-Rəşidi" elm komplekslərinin inşası ilə Təbrizin mədəniyyət aləmində böyük dəyişiklik baş verdi. Belə ki, İslam dininin burada monqollar tərəfindən qəbul edilməsindən sonra

Qazan xan digər sahələrdə də böyük nailiyyətlər əldə edə bildi. Qazan xan müxtəlif sahələrə - din, tarix, hərb və s. bələd idi, eləcə də monqol, hind, fars, Kəşmir, Tibet, Xətay və fransız dillərini bilir, bununla yanaşı zərgərlik, ticarət, rəssamlıq, tibb elmləri və münəccimlik sənətində böyük təcrübəsi var idi. O, gözəl nitq mədəniyyətinə malik olmaqla yanaşı, həm də çox hazırcavab bir hökmdar idi.

Bu dövrdə Qazan xan tərəfindən həyata keçirilən ən mühüm tarixi islahatlardan biri də təhsil, tədris sahələrində baş verən islahatlar - dini dərslər, tibb, münəccimlik, incəsənət və bu kimi digər elmlərin tədrisi idi. Xacə Nəsirəddin Tusi tərəfindən Marağa rəsədxanasının tikintisi astronomiya və münəccimlik elminin inkişafı üçün əhəmiyyətli rola malik idi. Bu elmi tədqiqat mərkəzində fəaliyyət göstərən bir qrup alim yeni tədqiqat metodlarının qapılarını alim və tədqiqatçıların üzünə açdılar. Belə ki, avropalılar şərqlilərdən daha tez bu proseslərdən faydalandılar. "Rəbi-Rəşidi" və "Şənbi-Qazan" kimi elm və tədris komplekslərinin inşası tədris sahələrinin genişlənməsi sahəsində atılan mühüm və effektli addımlardan sayılır. "Rəbi-Rəşidi" orta əsrlərdə elm üzrə beynəlxalq tədris ocaqlarından biri sayılmaqla yanaşı, mədəniyyət və elm sahələrinin inkişaf etdirilməsində son dərəcə mühüm əhəmiyyət daşıyırdı. Buna misal olaraq, bu kompleksin banisi Xacə Rəşidəddin Fəzlullahın müəllifi olduğu qiymətli və bəşər tarixində əhəmiyyətli rola malik olan əsərlərini göstərmək olar. "Rəbi-Rəşidi" Azərbaycan və İranın ən mötəbər tədris və mədəniyyət ocağı olaraq dünya səviyyəsində ad və şöhrət qazanmışdı. 1209-cu ildə təsis olunmuş Kembric Universiteti ilə müqayisədə bu ali təhsil ocağının orta əsrlərdə elm, təlim-tərbiyə sahəsində böyük uğurları olmuşdur. Bu kompleks tarixi mənbələrə görə Praqa, Vyana, Upsala, London, Hollandiya və digər Avropa şəhərlərində olan ali təhsil ocaqları ilə müqayisədə daha çox təcrübəyə və daha dərin tarixə malikdir. "Rəbi-Rəşidi" elə bir təhsil ocağı idi ki, orada bütün elmlər tədris olunurdu. Burada 7000 tələbə təhsil alırdı. Rəşidəddin oğlu Şahabəddinə yazdığı məktubda qeyd etmişdi ki, tibb və elmin digər sahələrində fəaliyyət göstərən bir sıra alimləri tədrislə məşğul olmaq üçün "Rəbi-Rəşidi"yə göndərsin. Hazırkı tədqiqat işində əsas məqsəd "Rəbi-Rəşidi" elm və mədəniyyət kompleksinin fəaliyyətini, eləcə də onun banisi Xacə Rəşidəddin Fəzlullah Həmədaninin elm sahələrinin, xüsusilə tibb elminin inkişafında və çiçəklənməsindəki rolu və xidmətləri ilə əlaqədar elmi ictimaiyyətə faydalı və dolğun məlumatların verilməsindən ibarətdir. "Rəbi-Rəşidi" Təbrizin Abbasi adlanan məhəlləsində yerləşərək bu şəhərin ən qiymətli tarixi binalarından sayılırdı. Təqribən 700 il

bundan öncə Təbrizdə Rəşidəddin Fəzlullah Həmədaninin adına ali təhsil ocağı yaradılmışdır. Qeyd etmək lazımdır ki, Rəşidəddin o zamanlar həmin diyarın hakimlərindən olan Qazan xanın vəziri idi. O zamanlar bu təhsil ocağı 4 bölmədən (fakültədən) ibarət idi və bu bölmələr təhsil ocağının dörd tərəfində yerləşmişdi. Buna görə də təhsil mərkəzinin adı "ərbə" (ərəb dilində dörd deməkdir) sözündən olub və bu məkan "Rəbi-Rəşidi" adlandırılmışdır. "Rəbi-Rəşidi" mükəmməl infrastruktura malik kiçik bir şəhər idi. Burada kitabxana, mədrəsə, məscid, darülyetim, hamam, karvansara, xəstəxana, sənaye emalatxanaları var idi. "Rəbi-Rəşidi"nin bütün işləri Xacə Rəşidəddin Fəzlullah Həmədani tərəfindən idarə olunurdu. Xacə Rəşidəddin Fəzlullah Həmədani hicri şəmsi təqvimilə yeddinci yüzilliyin sonlarında dünyaya gəlmiş və tanınmış siyasətçi, tarixçi və təbib olmuşdur. O, "Cameüt-təvarix" əsərinin müəllifidir və vəzirlik müddətində müxtəlif binalar, o cümlədən "Rəbi-Rəşidi" elm kompleksini bütünlüklə tikdirmişdir. Rəşidəddin Fəzlullahın müxtəlif mədəniyyətlər və elmlərdən xəbərdar olması onun biliklərinin və yazdığı əsərlərin dünya alimləri tərəfindən maraqla izlənməsinə səbəb olmuşdu.

**Tədqiqatın xronoloji çərçivəsi.** Tədqiqat işində XIV əsrin əvvəllərində Təbrizdə Hülakülərin hakimiyyəti zamanı Fəzlullah Rəşiddədin tərəfindən yaradılmış "Rəbi-Rəşidi" elm və mədəniyyət mərkəzinin Azərbaycan və İran tibb elmindəki rolu ilə bağlı sistemli təhlillər aparılmışdır.

**Mövzunun öyrənilmə səviyyəsi.** "Rəbi-Rəşidi" elm və mədəniyyət mərkəzi, eləcə də onun banisi dahi alim, siyasətçi və tarixçi Xacə Rəşidəddin Fəzlullah Həmədani barədə öncə aparılmış araşdırmalar barədə bunu deyə bilərik ki, bir çox tarixi sənədlərin, əlyazma nüsxələrinin və mövzuya aid olan mənbələrin araşdırılması, eləcə də internet vasitəsilə informasiya portallarında yerləşdirilən məlumatların izlənilməsi nəticəsində belə bir qənaətə gəlindi ki, indiyə qədər mövzu ilə bağlı bir çox tədqiqatlar aparılmışdır.[1] Mövzu ilə əlaqədar mötəbər beynəlxalq dərgilərdə müxtəlif məqalə və kitablar dərc olunmuşdur ki, bu dərgilər və dərc olunan məqalələrin adı barədə dissertasiyada məlumat verilmişdir.

---

1. بروشکي، محمد مهدي، بررسي روش اداري و آموزشي ربع رشيدي، انتشارات آستان قدس رضوي 1365، ص 136-32
امیدياني، سيد حسين، مقاله: ربع‌رشيدي مجتمع بزرگ وقفي و علمي و آموزشي در تبريز فصل‌نامه ميراث جاويدان، سال هفتم، شماره 3، تهران، مهر ماه 1378، ص 60-15
رجب‌زاده، هاشم، خواجه رشيدالدين فضل‌اله، چاپ اول، انتشارات وزارت فرهنگ و ارشاد اسلامي، 1377، ص 308-33

**Tədqiqatın mənbə bazası.** Tədqiqat obyekti olan mövzu barədə bir sıra qiymətli sənədlərin və tarixi mənbələrin öyrənilməsinin mümkün olmaması səbəbindən bu istiqamətdə dolğun və dəqiq nəticələr əldə etmək üçün tarixi sənədlər və əlyazma nüsxələri saxlanılan bəzi elmi mərkəzlər və kitabxanaların fondlarından istifadə olunmuşdur. “Rəbi-Rəşidi” ilə əlaqədar əlyazmalar, tarixi sənədlər və mənbələr, eləcə də monqollar dövründə yazılan bəzi tarixi əsərlər öyrənilməklə mövcud məhdudiyyətlər müəyyən qədər aradan qaldırılmışdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Ümumi məqsədlər kimi, azərbaycanlı və iranlı alimlərin, xüsusilə Xacə Rəşidəddin Fəzlullah Həmədaninin elm və tədqiqat sahəsində bilik və imkanlarının tanıtdırılmasını, habelə Azərbaycan və İranda tibb elmində onların rolunun qiymətləndirilməsini göstərmək olar. Konkret məqsədlər dedikdə isə Azərbaycan və İranda tibb elm tarixinin, eləcə də onun orta əsrlərdə inkişaf istiqamətlərinin araşdırılması, hicri təqvimilə VII əsrin ən məşhur alimlərinin tanıtdırılması və onların fəaliyyət istiqamətlərinin araşdırılması, “Rəbi-Rəşidi” kompleksi, onun konstruksiya və təşkilati strukturunun nəzərdən keçirilməsi və onun digər məşhur tibb mərkəzlərilə müqayisəsi, “Rəbi-Rəşidi”də, xüsusilə “Darüş-şəfa”da səhiyyə və müalicə xidmətlərinin vəziyyətinin və tibb təhsil səviyyəsinin araşdırılması, “Rəbi-Rəşidi” kitabxanasının təqdimatını göstərmək olar. Onu da qeyd etmək lazımdır ki, hazırkı tədqiqat işində təbabət elminin tarixi barədə lazımi informasiya təqdim olunmaqla yanaşı, “Rəbi-Rəşidi” və onun banisi Xacə Rəşidəddin Fəzlullah Həmədani barədə mövcud olan qeydlər arasından tarixi baxımdan ən əhəmiyyətlilərinin çıxarılaraq təsdiq olunması və əldə olunan nəticələrin müvafiq fəsildə təqdim olunması üçün səy göstərilmişdir.

**Dissertasiya işinin metodoloji əsası.** Dissertasiyanın yazılmasında tarixi-müqayisəli metoddan istifadə edilmiş, komleks tədqiqiqat üslubu tətbiq edilmişdir. Tədqiqatda Azərbaycan, fars, türk və Qərb ədəbiyyatı

---

رجب‌زاده، هاشم، آيين كشور داراي در عهد وزارت رشيدالدين فضل‌اله همداني چاپ خرمي، انتشارات توس، 1355، ص 134

حاجيلو، غلامعلي، مقاله: علوم پزشكي در ربع رشيدي و تنكسوق نامه «كتاب خلاصه مقالات طرح كنگره احياي ربع رشيدي، خزائلي، علي‌رضا دانشگاه تبريز، 1384، ص 94

هاشمیان،هادی وقفنامه رشیدی،مجموعه مقالات درباره خواجه رشیدالدین فضل الله وربع رشیدی تبریز:رحمانی،رضا،چاپ علامه طباطبایی ،جلددوم،چاپ اول تهران،1388، ص 996-995

لواسانی،محمدحسن،علوم وتاریخچه ربع رشیدی، انتشا رات بین المللی قلم،تبریز1372، ص240

حاجیلو ،غلامعلی،ربع رشیدی تبریز ،انتشارات ترمه،چاپ دلارنگ،دانشگاه علوم پزشکی تبریز1379، ص 19

kontekstində tədqiqatın predmeti ilə əlaqədar görkəmli alimlərin əsərlərinə əsaslanılmış, tədqiqat prosesində mövcud elmi nəticələrdən söz açılmışdır.

**Tədqiqatın elmi yeniliyi.** Xacə Rəşidəddin Fəzlullah Həmədaninin əvəzsiz maliyyə dəstəyi və göstərişi ilə yaradılmış böyük tədris kompleksi "Rəbi-Rəşidi"nin əhəmiyyəti, Fəzlullahın yaşadığı dövrün siyasi, ictimai və mədəni xüsusiyyətlərini, eləcə də həmin dövrün elm sahələrinin və alimlərinin səviyyəsini dərindən öyrəndiyimiz halda bizə daha aydın olur. "Rəbi-Rəşidi" kompleksinin, eləcə də adi vəqfnamədən mühüm olan və hətta təhsil sistemində idarəetmə, şəhər layihələndirməsi, elm və təhsil ocağı sayılan bir şəhərdə təşkilati, rifah və asayiş baxımından düzgün planlaşdırmanın bariz nümunəsi olan "Rəbi-Rəşidi vəqfnaməsi" adlı dəyərli əsərin tarixinin araşdırılması hər bir zaman mühüm əhəmiyyət kəsb edir. Əgər onun barəsində tarixi mənbələrdə qeyd olunan faktlar olmasaydı, belə bir tarixi kompleksin varlığı insana əlçatmaz və xəyali görünərdi. Yuxarıda qeyd olunan "Vəqfnamə" əsəri "Rəbi-Rəşidi" elm və təhsil kompleksinin layihələndirilməsi və inşa edilməsindən sonra Xacə Rəşidəddin Fəzlullah Həmədani tərəfindən yazılmışdır və həmin dövrün bütün proseslərini özündə əks etdirir. Rəşidəddinin məktubları, eləcə də alimin qələmə aldığı tarixi qeydlər, "Rəbi-Rəşidi" kompleksini gözlərilə görən və onunla yaxından tanış olan Marağeyinin nəfis əsəri və şeirləri, Qazan xanın islahat yönümlü tədbirləri nəticəsində və onun vəziri Xacə Rəşidəddin Fəzlullahın böyük səyləri sayəsində layihələndirilən və inşa edilən bu tarixi abidənin varlığından və əhəmiyyətli rolundan xəbər verir. Müasir dövrdə bizim üçün əhəmiyyətli olan məqam bundan ibarətdir ki, "Rəbi-Rəşidi" hələ də dünyanın bir çox elm-tədqiqat mərkəzlərinin diqqət mərkəzindədir. Onlar mükəmməl konstruksiyaya və olduqca dəqiq və təhsil sisteminə malik olan bu kompleks barədə hələ də tədqiqat və araşdırmalar aparırlar. Qeyd etmək lazımdır ki, "Rəbi-Rəşidi" kompleksində beynəlxalq səviyyəli fəaliyyət həyata keçirilmiş, ali təhsil fars və ərəb dillərindən başqa türk, hind, Çin və hətta sanskrit dilində tədris olunmuşdur. Burada müxtəlif ölkələrdən dəvət olunmuş alimlər və elm adamlarının iştirakı ilə müxtəlif müsabiqələr keçirilirdi. "Rəbi-Rəşidi" elm və tədris mərkəzində üç mühüm mərhələnin - təhsil, tədqiqat və istehsalın sintezi var idi. Çin və Hindistan kimi ölkələrdən gətirilmiş müalicəvi bitki toxumlarının becərilməsi üçün ərazilər ayrılmışdı. Bu müalicəvi bitkilərdən hazırlanan dərman preparatlarından "Rəbi-Rəşidi" kompleksində fəaliyyət göstərən "Darüş-şəfa" adlanan əczaçılıq mərkə-

zində xəstələrin sağaldılması üçün istifadə edilirdi. Kompleks tam olaraq özünütəminat sistemi ilə idarə edilir, bütün tələbat və ehtiyaclar "Rəbi-Rəşidi" kompleksinin məhz daxili imkanları sayəsində təmin edilirdi ki, bunun üçün də lazım olan bütün şərait yaradılmışdı. "Rəbi-Rəşidi" kompleksində dövrün qabaqcıl təhsil sistemi və tədris metodikası var idi. Belə ki, tələbələrin istedad və bacarığının yoxlanılması, ixtisas bölgüsü, tələbələrin sayının və onların təhsil müddətlərinin müəyyən edilməsi kimi son dərəcə mühüm xüsusiyyətlər tarixdə ilk dəfə olaraq məhz "Rəbi-Rəşidi" kompleksində tətbiq edilmişdir. Burada tətbiq olunan təhsil sistemi və metodları hal-hazırda dünya səviyyəsində ən mötəbər ali təhsil ocaqlarında tətbiq olunan metodlar və təhsil sistemi ilə müqayisə etmək olar. Şəhərdəki layihələndirilmə və rifah tədbirləri də bu kompleksin üstünlüyü və özəl xüsusiyyətlərindən biridir. Belə ki, "Rəbi-Rəşidi" bölgəsində 35000 ailə üçün səhiyyə kompleksləri, yaşayış yerləri, su anbarları və kanalları, dükanlar, toxuculuq sexləri və digər obyektlər mövcud idi. Burada sakinlər üçün təqaüd, təmənnasız müalicə, bütün fövqəladə hadisələr qarşısında ictimai təminat nəzərdə tutulmuşdu ki, Rəşidəddin Fəzlullah Həmədani tərəfindən görülmüş bütün bu tədbirlər sakinlərin rifah halının yüksəlməsinə xidmət etmişdir. "Rəbi-Rəşidi" kompleksi, eləcə də bu möhtəşəm tarixi mərkəzin banisi Rəşidəddin Fəzlullahın dəyərli xidmətləri barədə aparılan araşdırmalar, son dərəcə əhəmiyyətli olmaqla yanaşı, bu tarixi kompleksin indiki nəsillərə və bu istiqamətdə tədqiqat aparan və məlumat toplayan insanlara, habelə digər xalqlara daha yaxından tanıtdırılması baxımından son dərəcə dəyərli bir işdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** "Rəbi-Rəşidi" elm və mədəniyyət kompleksi hicri qəməri təqvimilə VII əsrin sonlarında inşa edilməsinə baxmayaraq özünün xüsusi və spesifik mövqeyinə görə hələ də dünyanın elmi dairələrinin araşdırma və tədqiqat predmetidir. Bir müddət öncə Küveytin "Ovqaf" adlı jurnalında "Rəbi-Rəşidi" kompleksi barədə 27 səhifədən ibarət böyük bir məqalə tərcümə olunaraq dərc edilmişdir. Bundan başqa Bergit Human adlı alman tədqiqatçısının "Rəbi-Rəşidi" mövzusunda yazdığı doktorluq dissertasiyası 2002-ci ildə Almaniyada kitab şəklində nəşr olunmuşdur. Bu kitab Behrəlulumi tərəfindən tərcümə edilmişdir. Bununla da, bu möhtəşəm elm və tədris mərkəzinin əhəmiyyətini nəzərə alaraq, onun tarixə, xüsusilə də tibb elminin tarixinə maraq göstərən tədqiqatçılara daha yaxından tanıtdırılması xüsusi əhəmiyyət və zərurilik kəsb edir. Eyni zamanda tibb elminin tarixi barədə aparılan tədqiqat və araşdırmalar, daha dolğun baxışların meydana gəlməsi, özünə

inamın yaranması, tibb elminin tədrisində istedad və yaradıcılığın üzə çıxarılması prosesində son dərəcə əhəmiyyətli və həlledici rola malikdir. Uzun əsrlər boyu böyük zəhmətə qatlaşaraq tibb elminin inkişafı istiqamətində böyük nailiyyətlərə imza atmış azərbaycanlı və iranlı təbiblərin adlarının və çəkdikləri zəhmətlərin üzə çıxarılması və gələcək nəsillərə tanıtdırılması, bu sahədəki fəaliyyətlərin səmərəliliyini və effektini daha da artırmış olacaq. Azərbaycanın və İranın tibb elminin tarixi çox zəngin və məhsuldardır. Belə ki, İslam dövrünə aid (hicri qəməri təqvimilə II əsrdən VII əsrin sonlarına qədər) tibbi fəaliyyətlərin araşdırılması müasir tibb elminin daha da inkişaf etməsi işinə böyük fayda və səmərə vermiş olar. Qədim təbabət metodlarından hazırkı metodların daha da təkmilləşdirilməsi işində istifadə etmək olar və bu çox zəruridir. Tibb tarixi üzrə tanınmış alim, tarix elmləri doktoru Fərid Ələkbərli “Azərbaycanda orta əsrlərdə məşhur təbiblər” adlı kitabında, xüsusilə Azərbaycanda tibbin müxtəlif sahələrində dəyərli iz buraxmış və böyük nailiyyətlər əldə edərək, tibbin inkişafına xidmətlər göstərmiş dahi alimlərdən söz açmışdır. Bununla da cəmiyyətin, ölkənin tarixi varlıqlarla tanışlığı, onlar arasında özünə inam hissinin güclənməsinə səbəb olur. Tədqiqatçılar və bu sahəyə maraq göstərənlər bilməlidirlər ki, tarixən yurdumuza hücum etmiş yadellilər elmi və mədəni nailiyyətlərimizi nə qədər məhv etməyə cəhd etsələr də, bu diyarın övladları elm, təhsil ocaqları yaratmaqla, öz dövrlərində elmi daha da inkişaf etdirmiş və yazılmış əsərləri müxtəlif dillərə tərcümə edərək yaymışlar. Müxtəlif zaman kəsiklərində bu kimi fəaliyyətlər tarixi baxımdan böyük qürur və fərəh hissi doğurur. Elə bu nöqteyi-nəzərdən də tibb elminin tarixinə həsr olunan hazırkı tədqiqat işi böyük əhəmiyyət kəsb etməklə, bu işin müəllifi mövzu barədə informasiya və məlumatları tələb olunan qaydalar çərçivəsində oxucuya çatdırmaq üçün bütün səylərini səfərbər etmişdir.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Elmi Şurasında təsdiq olunmuş və institutun “Tərcümə və informasiya” şöbəsində yerinə yetirilərək, müzakirə edilmiş və müdafiəyə məsləhət görülmüşdür. Dissertasiyanın əsas müddəaları respublikanın müxtəlif elmi nəşrlərində, nüfuzlu xarici məcmuələrdə çap olunmuş məqalələrdə, elmi konfranslarda etdiyi məruzələrdə əks olunmuşdur.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **“Giriş”** hissəsində tədqiq olunan mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın işlənmə dərəcəsi şərh edilir, dissertasiyanın predmeti, məqsəd və vəzifələri qeyd edilir, tədqiqatın nəzəri və metodoloji əsasları, elmi yeniliyi və elmi-praktik əhəmiyyəti, aprobasiyası müəyyən edilmişdir.

Dissertasiya işinin birinci fəsli **“Orta əsrlərdə və müasir dövrdə Şərq dünyasında tibb elminin tarixinə baxış”** adlanır. Bu fəslin özü üç yarımfəsildən ibarətdir. “Orta əsrlərdə və müasir dövrdə Şərq aləmində tibb elminin tarixi prosesləri” başlığı ilə olan birinci yarımfəsildə tibbin tarixindən, onun inkişaf mərhələlərindən və tibb elmi barədə yazılmış qədim əsərlərdən bəhs olunur, eləcə də müsəlman aləmində tibb və səhiyyə sahəsində əldə olunan yüksək nailiyyətlər barədə qısa məlumat verilir. “Orta Şərq regionunda tibb elminin yaranma tarixi” adlanan ikinci yarımfəsildə İslam dininin meydana gəlməsindən öncə Ərəbistanda tibbin vəziyyəti və bu sahədə mövcud olan səhv yanaşmalar və metodlar, İslamın meydana gəlməsindən sonra isə müsəlman şərqində tibb elminin nəzərə çarpacaq dərəcədə inkişaf etməsindən və müsəlman alimlərinin böyük nailiyyətlərindən bəhs olunur.[1] “Müsəlman dünyasında tibb elminin tarixi kökləri” adlanın üçüncü yarımfəsildə isə hicri qəməri tarixi ilə II əsrin birinci yarısından III əsrin ortalarına qədər Azərbaycanda və İranda və müsəlman Şərqində tibbin tarixi, qabaqçıl tibb və səhiyyə mərkəzlərinin mühüm rolu, İslam aləmində təbabət və digər elm sahələri barədə əsərlərin tərcümə dövrü, tərcümə sənətinin inkişafı, İslam aləmində ilk səhiyyə və müalicə mərkəzləri, eləcə də səhiyyə, tibb, təmizlik, sağlamlıq, zərərli vərdişlər, Həzrət Məhəmməd Peyğəmbərin (s) bu barədə tövsiyələrindən istifadə olunaraq tibb elminin daha da inkişaf etməsindən, eləcə də bu sahədə müsəlman təbiblərin nailiyyətlərindən bəhs olunur və bir çox qabaqcıl xəstəxanalar, İslam Şəqrinin Təbəri, İbn Sina, Razi, Məcusi və Cürcani kimi görkəmli təbib və alimlərinin müəllifi olduqları əsərləri, İranda “Rəbi-Rəşidi” kompleksindən öncə fəaliyyət göstərən xəstəxanalar, İranın və müsəlman dünyasının məşhur təbibləri və onların tibbi əsərləri barədə konkret məlumatlar qeyd olunmuşdur.[2]

---

1.Ələkbərov F.U. Orta əsrlər Azərbaycanında şöhrət tapmış tibb əlyazmaları // "Orta əsr əlyazmaları və Azərbaycan mədəniyyəti tarixi məsələləri" 3-cü Respublika elmi конfransının materialları. Bakı: Örnək, 1992, s.19-21

[2] الگود، سريل، تاريخ پزشكي ايران و سرزمين‌هاي خلافت شرقي، ترجمه باهر فرقاني، چاپ سوم، انتشارات اميركبير، 1386، ص

Dissertasiyanın ikinci fəsli **"Elxanilər dövründə Yaxın və Orta Şərqdə tibb elminin inkişafı"** adlanır. Bu fəslin özü dörd yarımfəsildən ibarətdir. "Elxanilər dövlətinin təşəkkülü, elm və mədəniyyət sahəsində yürütdüyü siyasət" adlanan birinci yarımfəsildə öncə Elxanilər dövlətinin yaranması, eləcə də Hülakü xan (1256-1265), onun varisi Ulcaytu (1304-1316), Əbu Səid xan (1316-1335) barədə qısa şəkildə məlumatlar verilmişdir. "Elxanilər dövlətinin paytaxtı Azərbaycanın Təbriz şəhərində XIII-XIV əsrlərdə elmi-mədəni mühit və səhiyyənin vəziyyəti" adlanın ikinci yarımfəsildə monqollar dövründə Azərbaycanın paytaxtı kimi Təbrizin dahi alimləri, incəsənət xadimləri, şair və memarlarının nailiyyətlərindən bəhs olunur. Belə ki, həmin dövrdə tibb, astronomiya və riyaziyyat kimi elmlər Azərbaycan və İranda nəzərə çarpacaq şəkildə inkişaf etmiş, Təbrizdə tibb sahəsi barədə müxtəlif əsərlər yazılmış, digər xarici dillərdə qələmə alınan mənbələr fars dilinə tərcümə edilmişdi.[3] "Elxani hökmdarı Qazan xan və onun tərəfindən səhiyyə, elm və mədəniyyət sahələrində aparılan islahatlar" adlanın üçüncü yarımfəsildə Qazan xanın siyasi kursu və islahatları barədə geniş məlumat verilir. Belə ki, bu islahatlar Elxanilərin vəziri Rəşidəddinin birbaşa dəstəyi və yardımı ilə həyata keçirilirdi. Rəşidəddin Elxanilər hakimiyyətinin ikinci vəziri sayılsa da, əslində dövlət tərəfindən hazırlanan layihələrə və islahatların icrasına rəhbərlik edən şəxs idi. Belə ki, Elxanilər dövlətində hicri təqvim ilə VII yüzilliyin sonunda və VIII yüzilliyin əvəllərində inşaat və iqtisadiyyat sahəsində həyata keçirilmiş islahatların əksəriyyəti Qazan xana aid edilmişdir. Lakin tarixçilərin və alimlərin bir çoxu belə düşünür ki, Qazan xan və Ulcaytu xan dövründə həyata keçmiş islahatlar vəzir və alim Xacə Rəşidəddin Fəzlullahın səyi və təşəbbüsü ilə mümkün olmuşdur. Həmin dövrdə nəzərə çarpacaq dərəcədə iqtisadi və sosial islahatlar həyata keçirilirdi. Hülakülər dövlətində adam başına düşən gəlir vergisinin miqdarı müəyyən edilmişdi. Vergi dərəcələri metal və ya daş lövhələr üzərində yazılaraq məscidlərin və əhalinin çox hərəkətdə olduğu yerlərdəki binaların divarlarına vurulurdu. Bu addımda əsas məqsəd əhalinin vergi tutmaları barədə məlumatlandırılması və sui-istifadə hallarına yol verilməməsindən ibarət idi. Vergi məmurları barədə qərarlar qəbul edilmişdi. Artıq onların kəndliləri narahat etməyə hüququ yox idi. Sələm vermə qadağan edilmişdi. Vergilər artıq zadəganlar vasitəsilə deyil, bu iş dövlət tərəfindən müəyyən

---

17-157

[3] بياني، شيرين، مغولان و حكومت ايلخاني در ايران، چاپ ششم، تهران 1387، ص 37

edilən məmurlar tərəfindən həyata keçirilirdi. Tamğa vergisi ləğv edilmişdi. Qazan xanın iqtisadi islahatlarında məqsəd çadır həyatını şəhər həyatına çevirməkdən ibarət idi. Bu islahatların əsas dəstəkləyicisi və təşəbbüskarı olan Xacə Rəşidəddin torpaq mülkiyyətini gücləndirməyə nail oldu. O, vergi sistemini tənzimləməklə yanaşı, qeyri-leqal yığılan vergiləri ləğv etdi. Bundan başqa dövlətə ödəniləcək qanuni vergilər, onların miqdarı və ödənilmə vaxtı müəyyənləşdirildi. Bununla da bu sahədə nizamlı bir idarəetmə meydana gəldi və nəticə etibarilə vəzifələrindən sui-istifadə edən vergi məmurlarının özbaşnalığına, rüşvətxorluğuna, möhtəkirliyinə və oğurluğuna son qoyuldu. O, oğlu Şahabəddinə ünvanladığı məktubda belə tövsiyə edir: “Səlahiyyət və ixtiyar sahibi olan məmurlar dövlətin mismarları anlamındadırlar. Bu mismarlar möhkəm olmalıdır ki, dövlətin çadırı və hakimlərin dəbdəbəli örtüyü külək qarşısında möhkəm dayansın. Əgər məmur tox olarsa, rəiyyət malına göz dikməz və ona tamah salmaz”. Qazan xan tərəfindən aparılan islahatlar sırasında Elxani tarixinin və ya Qazan xanın hökmranlığı dövrü tarixinin yazılması da əhəmiyyət kəsb edir. O, bu işi qəməri ilinin şəmsi ili ilə müqayisəsi üçün etmişdi. Onun zamanında Novruz bayramı gününün geri atılması və şəmsi təqvimilə qəməri təqvimi arasında 13 il fərqin meydana gəlməsinə baxmayaraq, 701-ci ilin rəcəb ayının 13-də Abbasi və Deyləmi xilafəti dövründən uyğunlaşdırılmamış qalmış təqvimi tutuşdurmağa nail oldu. Qeyd olunan gün yeni tarixin əvvəli sayıldı.[4] Lakin bu tarix davam etmədi və tezliklə ləğv edildi. Ölkənin vergi sistemi tam olaraq nizama salındı. Rəşidəddinin təşəbbüsü və təşviqi ilə Qazan xan tərəfindən verilən göstərişə görə sələmçilik işinə qadağa qoyuldu. Bu fərman sələmdən böyük gəlirlər əldə edən bir çox zənginlər üçün böyük zərbə oldu. Bunun əksi olaraq əhalinin vəziyyəti və rifah halı yaxşılaşdı. Pul sikkələri dəyişdirildi. Bütün çəki sistemi Təbrizdə mövcud olan ölçü-çəki sisteminə uyğunlaşdırıldı. Verilən əmrə görə bütün ölkə ərazisindəki tərəzilər dəmir materialdan hazırlanmalı, onun üzərində isə möhür vurulmalı idi ki, bununla da saxtakarlığın qarşısı alınmış olsun. Bütün qazılar, din xadimləri və şəriət məsələləri idarə edənlər, bütün mübahisəli məsələləri şəriət hökmlərinə və ədalət prinsiplərinə uyğun olaraq həll etməyə borclu idilər. Onlar zülm və zorakılıqdan çəkinməli idilər. Rəşidəddinin tövsiyələri sayəsində ölkənin işıqlı gələcəyi və inkişafının təminatı üçün kənd təsərrüfatı və maldarlıq

---

[4] نجم آبادي، محمود، تاريخ طب در ايران (پس از اسلام) انتشارات دانشگاه تهران 1375، ص 155-52

sahələrində islahatların keçirilməsinə diqqət yetirildi. Əkinçilərin və maldarların vəziyyətinin yaxşılaşdırılması, əkinçilər və kəndlilərin öz torpaqlarına qayıtmaları, təkrarlı vergi toplamalarının qarşısının alınmasını təmin etmək məqsədilə torpaq və əkin sahələri kəndilələrə paylandı. Toxum və kənd təsərrüfatı avadanlıqları kimi istehsal amilləri əkinçilər arasında bölündü. Suvarma sistemlərinin bərpa edilməsi istiqamətində əsaslı işlər görüldü, şəhər və kəndlərin abadlaşdırılması istiqamətində səmərəli addımlar atıldı. Rəşidəddin tərəfindən görülən inşaat və bərpa işləri hər şeydən öncə onun öz xeyrinə olsa da, ölkə iqtisadiyyatının, kənd təsərrüfatı və əkinçilik sahələrinin inkişaf etməsinə də nəzərə çarpacaq dərəcədə kömək etmiş oldu. Məhkəmə strukturunda da Qazan xan tərəfindən əsaslı islahatlar aparıldı. Sənədlərin saxtalaşdırılmasının qarşısının alınması məqsədilə verilən hər bir sənədin üzünün çıxarılaraq müvafiq yerlərdə saxlanması barədə qərar qəbul edildi. İdarəetmə və təhsil sistemində böyük işlər görüldü. Belə ki, Qazan xanın hakimiyyəti dövründə Xacə Rəşidəddin Fəzlullahın bilavasitə təşəbbüsü ilə yaradılmış mötəbər və son dərəcə mükəmməl elm və təhsil ocağı "Rəbi-Rəşidi" bir neçə əsas elementlərdən - iqamətgah (yaşayış yerləri, yeməkxana və s.), "darüş-şəfa" (xəstəxana), "beytül-kitab"dan (kitabxana) ibarət idi. "Rəbi-Rəşidi"nin təsisçisi Fəzlullah Rəşidəddin, onun həyat və yaradıcılıq yolu" adlanan dördüncü yarımfəsildə bu səriştəli və təcrübəli vəzirin həyatı, məqsədləri, dövlətçilik və idarəetmədəki mühüm rolu, elmi sahələrin inkişafında, eləcə də xalqın rifah səviyyəsinin yaxşılaşdırılması istiqamətində gördüyü işlər və əldə etdiyi uğurlar barədə geniş məlumat verilir. Bu dahi siyasətçi, tarixçi və təbib hicri təqvimilə VII əsrin ortalarında – 648-ci ildə (1250) Həmədanda ziyalı ailəsində dünyaya göz açmışdır. Rəşidəddinin dövründə yaşamış Fəzlullah bin Əbi Məhəmməd əl-Səqayi Rəşidəddini "Rəşiduddövlə" adlandırırdı. O yazır: "O, Əmir-Çupan çağırılan zaman yalnız adi ədviyyatçı və təbib idi. Ulcaytu və onun qardaşının hakimiyyəti dövründə isə tərəqqi və inkişaf zirvələrini fəth edir və dövlət rəsmisinə çevrildi". O, yalnız müdrik siyasətçi və tədbirli rəhbər deyildi, bəlkə böyük mütəfəkkir, təcrübəli tarixçi, səriştəli təbib və bacarıqlı yazar idi və özündən sonra zəngin bir irs qoyub getmişdir. Rəşidəddin qeyri-müsəlman xalqların elm və mədəniyyətinə də diqqət göstərirdi. Öz əsərlərini, xüsusilə "Cameüt-təvarix" əsərini qələmə alanda sarayda qalan çinli, tibetli, uyğur, fransız, yəhudi və ərəb alimlərindən və səfirlərindən istifadə edirdi. Rəşidəddinin siyasi kursu əsasən İslam dini prinsiplərinə və Hülakü hakimiyyət ənənələrinə söykənirdi. Belə ki, siyasətdə və dövlət işlərində o, ədalətə əsaslanan prinsipləri rəhbər

tuturdu. Fəzlullah Rəşidəddin dəfələrlə rəiyyətlə münasiətlərdə ədalətli yanaşmanın zəruriliyini qeyd etmişdir. Bu baxış və yanaşma onun dövlət işlərində ədalətsiz hərəkətlərə yol verilməsi barədə ehtimalları və nigaranlığından qaynaqlanırdı. Rəşidəddin Fəzlullah "Rəbi-Rəşidi" kompleksində mövcud olan spesifik və əzəmətli obyektlərdən başqa, digər şəhərlərdə də çoxsaylı binalar inşa etdirmişdir.[5] Onun sayəsində bütün insanlar təhlükəsizlik və rifah içində yaşayırdılar. İdarəetmə baxımından kamilliyə çatmış bir şəxsiyyət olan Rəşidəddin insanların problemlərini və çətinliklərini dərindən başa düşür, onların aradan qaldırılması yollarını tapırdı. Onun zəngin elmi və bədii yaradıcılığı olmuşdur. O, tarix, tibb və digər elmlər barədə əsərlərini monqol, ərəb, fars və hətta Çin dillərində yazmışdır. Onun əsərləri o zamanlar Bağdad şəhərindən gətirilən və ən keyfiyyətli və dəyərli kağızlar üzərində qələmə alınmışdır. Bu əsərlərin nüsxələrinin üzü ən gözəl və nəfis xəttə malik olan xəttatlar tərəfindən köçürülür və ölkə kitabxanalarında oxucuların ixtiyarına verilmişdir. Rəşidəddin "Elxanilərin Xətay elmləri və peşələri barədə tənsuqnaməsi", "Asarül-ehya vəl-əxbar vəl-asar", "Xətay hökmdarlarının siyasi kursu və addımları", "Cameüt-təvarix", "Şoəb pəncqane", "Surəl-əqalim", "Məftahüt-təfasir", "Tozihate-Rəşidi", "Lətayifül-həqaiq", "Bəyanül-həqaiq", "Əsilə va əcvubə" (sual və cavab), "Fəvaedüs-soltaniyyə" və ya "Əlməbahisüs-Soltaniyyə", "Mokatebate-Rəşidi ba mənşati-Rəşidi", "Vəqfnameyi-Rəbi-Rəşidi" kimi əsərlərilə özündən sonra zəngin bir irs qoyub getmişdir.

Dissertasiyanın **"Rəbi-Rəşidi" kompleksi və onun tarix baxımından elm və mədəniyyətin inkişafında rolu"** adlanan üçüncü fəslinin özü beş yarımfəsildən ibarətdir. "Rəbi-Rəşidi kompleksinin yaradılmasında məqsəd" adlanan birinci yarımfəsildə elmin inkişafı, insanların rifah səviyyəsinin yüksəldilməsi, səhiyyə və tibb sahələrinin inkişaf etdirilməsi baxımından son dərəcə əhəmiyyətli rola malik olan bu kompleksin məqsədi, funksiyası və nailiyyətləri barədə geniş və olduqca maraqlı məlumatlar verilmişdir. "Vəqfnamə"nin giriş hissəsində bu mərkəzin yaradılma məqsədləri çox aydın şəkildə şərh edilmişdir. Rəşidəddin özünün də yazdığı kimi, kiçik və xırda həcmli xeyriyyə mərkəzlərinin yaradılması ilə kifayətlənmirdi. Onun düşündüyü və arzuladığı iş qat-qat iri həcmli bir kompleks yaratmaq, böyük alimləri və düşüncə sahiblərini orada bir araya gətirmək, nəticə etibarilə elm sahələrinin inkişaf və çiçəklənməsinə xidmət etmək və alimlərin arasında elmi diskussiya və müzakirələrdən bəhrələnmək idi.

---

[5] رشيد الدين فضلالله بن ابي الخيربن عالي الهمداني، وقفنامه ربع رشيدي، چاپ حروفي از روي نسخه اصلي، مجتي مينوي، ايرج افشار، انتشارات انجمن آثار ملي، تهران 1356، ص 56

Rəşidəddin dünyanın qabaqcıl və inkişaf etmiş ölkələrinin təcrübə və nailiyyətlərini diqqətlə və müdrikcəsinə nəzərdən keçirərək əhatəli bir idarəetmə ilə böyüklüyünə, xüsusiyyətlərinə, fəaliyyətinə, idarəçilik sisteminə və elmi səviyyəsinə görə təkrarı olmayan "Rəbi-Rəşidi" şəhərciyinin əsasını qoymuşdur. Bu elm mərkəzinin yaradılmasında məqsəd isə gələcəkdə elmin inkişafına yardım etmək, xalqa xidmət etmək, gələcək nəsillər üçün işıqlı sabah yaratmaq və müsəlman aləminin elmi nailiyyətlərini və dini-mədəni dəyərlərini bütün dünyaya tanıtmaqdan ibarət idi. Rəşidəddinin ən başlıca məqsədlərindən biri onun elmə marağı və sevgisi, ürfan əhlinin düşüncələrinə, eləcə də hədislərə diqqət və marağı idi. Elə buna görə də belə bir böyük elm mərkəzinin əsasını qoymuşdu. "Rəbi-Rəşidi" və "Şənbi-Qazan"ı fərqləndirən cəhətlər bundan ibarət idi ki, "Rəbi-Rəşidi"də daha çox elm sahələrinə diqqət göstərilir və xeyriyyəçilik aspektləri ikinci planda idi. Bu möhtəşəm kompleks Rəşidəddin Fəzlullah Həmədaninin təşəbbüsü və Qazan xanın dəstəyi sayəsində hicri təqvimilə VIII əsrdə Qazan xan qalasının daxilində, başqa sözlə desək Qazan xan tərəfindən Təbrizin yeni divarları daxilində inşa edilmişdi.[6] "Rəbi-Rəşidi"nin yaradılmasında Qazan xan, Rəşidəddin Fəzlullah və digər şəxslərin rolu" adlı ikinci yarımfəsildə İslam dininin qəbul edilməsindən sonra Qazan xanın əmrilə görülən bir sıra tədbirlər, o cümlədən bütün bütxanaların, atəşgahların və digər məbədlərin dağıdılması, Təbrizdə kafir və müşriklərin məbədlərinin məhv edilməsi, böyük şəhərlərdə mədrəsə, məscid, xan sarayları və digər imarətlərin inşa edilməsi, Təbrizdə və Qazaniyyədə müxtəlif binaların inşası, Qazan xanın hakimiyyətə gəlişindən bir neçə il sonra Şam Qazan bölgəsində (Təbrizin cənubunda) möhtəşəm və böyük bir kompleksin inşa edilməsindən bəhs olunur.[7] Monqol əsilli hökmdarlardan olan Sultan Mahmud Qazan xan hicri təqvimilə 694-cü ildə Təbrizi öz hakimiyyətinin paytaxtı seçdi və bu şəhəri abadlaşdıraraq dövrün böyük və möhtəşəm şəhərlərindən birinə çevirdi. O zaman Təbriz Orta Şərqdə ticarət və sənaye mərkəzinə, eləcə də elm və mədəniyyət ocağına çevrilmişdi. Qazan xan hicri qəməri təqvimilə 702-ci ildə Təbriz-

[6] بیرامي، حسین، بخشیان، فریبا، مدیریت بهداشت و درمان و آموزش پزشکي و تأمین اجتماعي در ربع رشیدي تبریز، معاونت پژوهشي دانشگاه علوم پزشکي تبریز، چاپ اول 1386، ص 117

[7] مفتاح، الهامه، بررسي شخصیت و آثار رشیدالدین فضلالله همداني، مجموعه مقالات اولین سمینار تاریخي هجوم مغول به ایران و پیامدهاي آن، جلد دوم، چاپ اول، مرکز چاپ و انتشارات دانشگاه شهید بهشتي، 1379، ص 95

də "Şənbi-Qazan"ı tikdirmək üçün ətraf bölgələrdən olan mühəndisləri oraya dəvət etmişdi. Bu imarətin ətrafında cümə məscidi, dərvişlər evi, şafei fiqhinə əsasən həmin məzhəbdən, həmçinin hənəfi fiqhinə əsasən bu məzhəbin ardıcılları olan tələbələr üçün mədrəsə, Darüş-şəfa (xəstəxana), beytül-mütəvali (burada bir nəfər mənzil işləri, tikinti materialların tədarükü, mənzilvermə ilə məşğul idi), beytül-kitab və ya kitabxana, rəsədxana, hikmətiyyə (həkimlərin qalması və himmət elminin inkişafı üçün məkan), hovuz və su anbarı, Şəbistan və Adiliyyə qəsri, Beytül-qanun (Qazan xanın qəbul etdiyi qanunların qələmə alındığı yer), beytüs-səyyadə və ya darüs-səyyadə (mehmanxana və qəbul otağı) və gərmabe (hamam) inşa edildi.

Elxanilər tərəfindən bu böyük və əzəmətli kompleksin xərclərini təmin etmək üçün Qazan xanın əmrilə digər vilayətlərdə bir sıra mülklər ayrılaraq, onların idarə edilməsi Xacə Rəşidəddinə tapşırılmışdı. Bu kompleks öz dövrünün memarlıq sənətinin şah əsəri sayılır. Belə ki, kompleksin tikintisi üçün qonşu məmləkətlərin mahir və səriştəli mühəndisləri, eləcə də bacarıqlı sənətkarları Təbrizə dəvət olunmuşdular. Sultan Mahmud Qazan xanın ləyaqətli və bacarıqlı vəziri olan Xacə Rəşidəddin Fəzlullah Həmədani böyük elmi potensiala malik şəxs hesab olunurdu. Onun təşəbbüsü ilə bünövrəsi qoyulmuş "Rəbi-Rəşidi" elm və mədəniyyət mərkəzi Təbrizdə böyük bir akademiya kimi tarixi əhəmiyyətinə görə qürur və iftixar mənbəyidir. Hər şeydən çox diqqətçəkən məqamlardan biri bu böyük elm və təhsil kompleksi təşkilati struktur və idarəetmə sistemidir. Geniş fəaliyyət dairəsinə malik bu kompleks barədə bizə gəlib çatmış "Vəqfnamə" və tarixi mənbələr bu elm və mədəniyyət mərkəzinin müasir dövrümüzün təhsil ocaqlarına nə qədər yaxından bənzədiyini göstərir.[8] Belə ki, Avropa ölkələri orta əsrlərin cahillik və qaranlıq dövrünü yaşadığı bir zamanda İslam Şərqində belə bir möhtəşəm elm və mədəniyyət ocağının yaradılması həqiqətən də təqdirəlayiq bir iş idi. Qazan xanın Azərbaycan və İran mədəniyyətinə olan diqqəti, Rəşidəddinin siyasət və elm sahələrində bacarıq və istedadı, yuxarıda barələrində ətraflı məlumat verdiyimiz bu iki mühüm tarixi kompleksin meydana gəlməsi üçün münasib zəmin yaratdı. Qazan xan tərəfindən inşa edilən "Şənbi-Qazan" kompleksinin böyük kitabxanası və rəsədxanası uzun müddət dünya şöhrətli mədəniyyət mərkəzlərindən biri olmuşdur. Daha sonra isə Rəşidəddin Fəzlullahın inşa etdiyi

[8] فضل اله همداني، خواجه رشيد الدين، وقفنامه ربع رشيدي، به كوشش مجتبي مينوي و ايرج افشار، انتشارات انجمن آثار ملي، تهران 1350، ص 234-174.

“Rəbi-Rəşidi” elm və mədəniyyət mərkəzinin fəaliyyətə başlaması ilə elmi inkişaf və tərəqqi səmasında yeni bir ulduz parıldamağa başladı. “Rəbi-Rəşidi”də bütün elm sahələri tədris olunurdu. Bu ali təhsil ocağını indiki ali təhsil ocaqları ilə müqayisə etsək bunu görmək olar ki, “Rəbi-Rəşidi” öz kəmiyyət və keyfiyyət xüsusiyyətlərinə görə heç də geri qalmır, əksinə bu mərkəz o zaman elm və texnologiyaların elə də inkişaf etmədiyi bir zamanda böyük nailiyyətlərə imza atmış, indiki elmin əsas sütunlarını möhkəmlətmiş, tarixi qoruyub saxlamış və bir çox dəyərli əsərlərin bütün dünyada yayılmasına və qorunub saxlanılmasına şərait yaratmışdır. Rəşidəddin iki sahəyə - elm və siyasətə daha çox diqqət və maraq göstərdiyi üçün, “Rəbi-Rəşidi” kompleksində də bu iki sahəyə üstünlük verirdi. “Rəbi-Rəşidi”nin strukturu və fəaliyyət sahələri” adlanan üçüncü yarımfəsildə “Rəbi-Rəşidi” elm və mədəniyyət ocağının quruluşu, idarəetmə sistemi, keyfiyyət və kəmiyyət baxımından spesifik xüsusiyyətləri, elm və təhsilin inkişafında həlledici rolu, əsasən tibbi xidmətlərin göstərilməsi və səhiyyə səviyyəsinin yüksəldilməsi baxımından əvəzolunmaz yeri barədə əhatəli məlumat verilmişdir. Belə ki, bu kompleks Rəşidəddinin “Vəqfnamə”sində dolğun və əhatəli bir formada təsvir edilmiş və hətta cüzi detalları belə diqqətdən kənarda qalmamışdır. Elm, mədəniyyət və tədqiqat-tədris mərkəzi olan “Rəbi-Rəşidi” istər İslam dininin yaranmasından öncə, istərsə də sonrakı dövrlərdə böyüklüyünə və fəaliyyət aspektlərinə görə təkrarı olmayan bir kompleks olmuşdur. Öz fərqli xüsusiyyətlərinə görə bu məkan İslam dünyasında və ümumilikdə dünyada böyük elmi, mədəni və tarixi əhəmiyyətə malik bir mərkəz hesab edilmişdir. “Rəbi-Rəşidi”nin idarə edilməsi metodları, tədris sistemi və təşkilati strukturu bu günün ali təhsil ocaqları, akademiyaları, tədqiqat və araşdırma mərkəzləri ilə uyğun fəaliyyət istiqamətlərinə malik olmuşdur. Burada elmin və təhsil sisteminin inkişafı naminə metod və qaydaları son dərəcə dəqiq və ciddiliklə tətbiq edirdilər. [9] Təhsil, tədqiqat və elmin səviyyəsinin yüksəldilməsi istiqamətində ehtiyac duyulan bütün imkanlar yaradılırdı. İxtisasın müəyyənləşdirilməsindən öncə tələbələrin istedad və bacarıqlarının yoxlanılması “Rəbi-Rəşidi”də tədris prosesinin ciddiliyindən və dəqiqliyindən xəbər verir. “Rəbi-Rəşidi” elm və mədəniyyət kompleksinin ümumi büdcəsi 31618 dinar təşkil edirdi. O zamanlar hər bir dinarın dəyərinin 3 misqal qızıl olduğunu nəzərə alsaq, bunu deyə

[9] Blair, Sheila S. Ilkhanid Architecture and Society: An Analysis of the Endowment Deed of the Rab-I Rashīdī, Iran, Institute of Persian Studies Vol. 22, pp. 67-90, 1984.

bilərik ki, buranın xərcləri ümumilikdə 94854 misqal qızıl sikkəyə şamil olunurdu. Belə ki, illik xərclər 5216970000 rial təşkil edirdi. Bu rəqəm göstərir ki, "Rəbi-Rəşidi" kompleksinin büdcəsi bu gün dünyanın ən öndə olan mötəbər ali təhsil ocaqlarının büdcəsinə oxşar səviyyədə idi. "Rəbi-Rəşidi"də Rəşidəddin Fəzlullah, eləcə də digər alim və tədqiqatçılar tərəfindən yazılan və tərcümə olunan əsərlər böyük günbəzdə saxlanılırdı. Bu əsərlərdən nüsxələr çıxarılır, yəni əlyazmaların üzü köçürülürdü.[10] "Cameüt-təvarix" və "Tənsuqnamə" kimi mühüm və dəyərli əsərlər burada yazılmışdır ki, bu əsərlər İranın və bütün dünyanın ən dəyərli mədəni irsi sayılır. Kompleksin ən dəyərli elementlərindən sayılan kitabxana binası Xacə Rəşidəddin tərəfindən hicri qəməri təqvimilə 699-cu ildə təsis edilmiş və VIII əsrin birinci yarısında İranın və İslam dünyasının ən mötəbər kitabxanalarından biri idi. "Rəbi-Rəşidi" "Vəqfnamə"sində kitabxanada saxlanılan kitabların dəqiq sayı göstərilməmişdir. Lakin Rəşidəddinin yazılarında və etibar etdiyi şəxs Sədrəddin Türkə ünvanladığı məktublarında kitabxana barədə, buradakı kitabların sayı, onların kəmiyyət və keyfiyyət göstəriciləri barədə qeydlər apararaq yazmışdır: "...Günbəzin sağında və solunda inşa etdirdiyim beytül-kitaba (kitabxanaya) min nüsxə Quran yerləşdirdim və "Rəbi-Rəşidi"yə bağışladım. Qızılı xətlə yazılanlar 400 nüsxə, yaqut xəttilə yazılanlar isə 10 nüsxədir. İbn Müqəllidin xətti ilə yazılanlar 20 ədəd, Əhməd Sührəverdinin xətti ilə yazılanlar 20 ədəd, Əkaberin xətti ilə yazılanlar 20 ədəd, aydın və nəfis xətlə yazılanlar isə 548 ədəddir. Digər 600 min cild kitab elm, tarix, poeziya, ədəbiyyat və digər sahələrə aid olanlardır ki, bu kitablar Turan, Misir, Qərb ölkələri, Roma, Çin və Hindistandan toplanaraq bura gətirilmiş və tərəfimdən "Rəbi-Rəşidi"yə bağışlanmışdır". "Rəbi-Rəşidi" kitabxanasında istifadə qaydasını bugünkü metodlarla müqayisə etdikdə onların nə qədər mütərəqqi olduğunun şahidi oluruq. Belə ki, əsrlərlə bundan öncə istifadə olunan bu metodlar, müasir və müxtəlif tarixi proseslər nəticəsində mütərəqqi formaya düşmüş indiki metodlarla tam olaraq ayaqlaşır. "Darüş-şəfa" tibbi xidmətlərin göstərildiyi və tibb elmininn tədris olunduğu böyük bir müəssisə idi. Burada bütün lazımi imkanlar yaradılmış, dərman preparatlarının hazırlanması üçün xüsusi məkan fəaliyyət göstərirdi. Hətta şərabxana (maye dərmanlar) və dərman preparatlarının saxlanılması üçün xüsusi anbar da mövcud olmuşdur. Xəstəxananın əczaçılıq məkanında dərman hazırlayan bir neçə şəxs, eləcə

[10] ابوالحسني، جواد، نظام آموزش پزشكي در ربعرشيدي، خزائلي، عليرضا،كتاب:خلاصه مقالات كنگره احياي ربعرشيدي ، دانشگاه تبريز: 1384.، ص 191

də bir nəfər əczaçı həkim fəaliyyət göstərirdi. Burada daxilində müxtəlif dərmanlar saxlanılan iri küplər var idi ki, onların üzərində hər bir dərmanın adı yazılmış lövhələr asılırdı. Müxtəlif bitki və heyvan mənşəli dərmanların hazırlanması üçün lazım olan və Təbrizdə tapılmayan xammal Rəşidəddinin sifarişi ilə digər dövlətlərdən bura gətirilirdi. Müxtəlif müalicəvi xassələrə malik olan bitkilərin toxumları bura gətirilir və sırf bitki yetişdirilməsi üçün lazım olan sahələrdə əkilirdi. Yığılan məhsul "Rəbi-Rəşidi" şəhərciyinin sakinlərinin tələblərini ödəməklə yanaşı, əlavə olduğu təqdirdə digər yerlərə də ixrac olunurdu. "Darüş-şəfa"da fəaliyyət göstərən bütün təbib və işçilər gecə-gündüz növbə ilə burada qalırdılar. Təbib xəstələri qəbul edən zaman əczaçılıq mərkəzinin qapısında və yaxud da Rəşidəddinin dediyi kimi "şəbəkə"də xəstələri müayinə etdikdən sonra nəzərdə tutulan dərmanları kağız üzərində qeyd edər və əczaçılıq mərkəzinin başçısının (xazinin) yanına göndərərdilər. Ən maraqlısı budur ki, "Rəbi-Rəşidi"də müalicə olunan və tibbi xidmətlərdən istifadə edənlər (qonşu bölgələrin sakinləri, digər ölkələrdən gələnlər və buranın sakinləri) bunun müqabilində pul ödəmir və xidmətlərdən təmənnasız qaydada istifadə edirdilər. Qeyd etmək lazımdır ki, buraya sərf olunan vəsait, eləcə də dünyanın müxtəlif nöqtələrindən gətirilən və anbarlarda saxlanılan dərman preparatlarına çəkilən xərclərin həcmi qat-qat yüksək idi. Əgər "Rəbi-Rəşidi"də yaşayan hər hansısa bir şəxs müalicə üçün öz ayağı ilə xəstəxanaya gələ bilmirdisə, təbib ona baş çəkməli və hətta dərman hazırlayan şərabdar nəzərdə tutulan dərmanı özü xəstəyə çatdırmalı idi. Xəstəxanada fəaliyyət göstərən xüsusi mətbəxdə həkimin məsləhətinə və tapşırığına əsasən yeməklər bişirilərək xəstələrə verilirdi. Xəstəxanada yatan xəstələrin qaldıqları yer iki hissəyə - adi və yoluxucu xəstəliklər bölməsinə ayrılırdı. Xəstəxanada bir neçə tibb bacısı və bir neçə köməkçisi olan aşpaz çalışırdı. "Darüş-şəfa"nın əczaçılıq bölməsində dərmanlarla dolu yüzlərlə küpdən ibarət böyük bir dərman ehtiyatı var idi. Bir çox dərmanlar burada istehsal edilir və həkim göstərişinə əsasən xəstələrə verilirdi. Dərman ehtiyatı hətta bir neçə ilin ehtiyaclarını ödəmək üçün də kifayət edirdi. Bütün bunlar "Rəbi-Rəşidi" xəstəxanasının dərman ehtiyatlarının təkmilləşdirilməsi istiqamətində atılan faydalı və mühüm addımlardan sayılır. "Rəbi-Rəşidi" xəstəxanasının fəaliyyətinə, eləcə də bu məkanın Xacə Rəşidəddin tərəfindən məharətlə idarə olunmasına nəzər saldıqda, bu dahi şəxsiyyətin nə kimi məharətə və səriştəyə malik olduğunu başa düşürük. "Rəbi-Rəşidi"nin dünyanın digər elmi mərkəzlərilə əlaqəsi" adlı dördüncü yarımfəsildə bu möhtəşəm kompleksin digər məkanlarla müqa-

yisəli təhlili verilmişdir. Müxtəlif tarixi sənədlərdən, əlyazmalardan və bu kompleksin yaradıcısı tərəfindən yazılan "Vəqfnamə"dən bizə gəlib çatan məlumatlara görə "Rəbi-Rəşidi" Azərbaycanın və İranın, həmçinin bütün müsəlman Şərqinin ən mötəbər elm, mədəniyyət və tədris mərkəzi olmuşdur. Burada elm əhli, tanınmış təbiblər, elmin müxtəlif sahələrində məşhur olan alimlər daima dəstəkləndiyinə, eləcə də tərcüməçilər, xəttatlar və katiblərin sənətinə xüsusi diqqət göstərildiyinə görə ölkə hüdudlarından xaricdə də şöhrət qazanmış və məhz bu xüsusiyyətlərinə görə uzaq ölkələrdən belə bu kompleksdə işləməyə və təhsil almağa gələnlər var idi. Bir çox orijinal mənbələr və əsərlərdən bizə gəlib çatan məlumatlar bunu göstərir ki, "Rəbi-Rəşidi" əsrin ən böyük və mötəbər elm ocağı kimi Mərkəzi Asiyanın şəhərləri və nahiyələrində fəaliyyət göstərən elm ocaqları ilə birbaşa və ya dolayısı yolla əlaqədə idi. Alimlərə ənamların, hədiyyələrin və mükafatların göndərilməsi, alimlərə ünvanlanan dəvət məktubları Mərkəzi Asiyanın şəhərlərindən dini və elmi mənbələrin digər yerlərə ötürülməsi, bu diyarlardan olan tələbələrin "Rəbi-Rəşidi" kompleksinin mədrəsələrində və digər məktəblərdə təhsil almaları bilavasitə Xacə Rəşidəddin Fəzlullahın nəzarəti ilə həyata keçirdi. Bütün bu sadalanan xüsusiyyətlər "Rəbi-Rəşidi" kompleksinin Mərkəzi Asiyanın şəhərlərinin elmi və mədəni mərkəzlərilə əlaqəsindən xəbər verir. "Rəbi-Rəşidi" digər dillərdə yazılmış mənbələrin ərəb və fars dillərinə tərcüməsi istiqamətində təsirli rola malik olmuşdur.[11] Bir zamanlar Harun və Məmunun dövründə cərəyan edən bu proseslər, Rəşidəddinin dövründə yenidən canlanmağa başladı. Tərcümə edilmiş əsərlərin sırasında elə əlyazmalar var ki, onların əsl nüsxələri artıq mövcud deyildir. Lakin tərcümələrinin olması bu dəyərli mədəni irsin itib məhv olmasının qarşısını almış oldu. Məhz "Rəbi-Rəşidi" mərkəzində bir neçə elm sahəsi eyni zamanda inkişaf etməyə başladı. Əhəmiyyətli məqamlardan biri də bundan ibarətdir ki, "Rəbi-Rəşidi" elm və mədəniyyət mərkəzi hələ də dünyanın elm dairələrinin müzakirə obyektidir. Çin Universitetinin İranşünaslıq fakültəsində keçirilmiş İranşünaslıq Konfransına təqdim olunmuş "Çinşünaslığın genişləndirilməsi istiqamətində Xacə Rəşidəddin Fəzlullahın rolu" adlı məqalədə qeyd olunmuşdur ki, bu fakültədə "Rəbi-Rəşidi" araşdırmaları üzrə dosye açılmışdır. Küveytin "Ovqaf" dərgisində "Rəbi-Rəşidi" kompleksi barədə 27 səhifədən ibarət böyük bir məqalə tərcümə olunaraq dərc edilmişdir. Bundan başqa Bergit Human adlı alman tədqiqatçısının "Rəbi-Rəşidi" mövzu-

---

[11] عون الهی،سیدآقاحسنوف،ربع رشیدی واهمیت تاریخی آن،مجله آکادمی علوم جمهوری آذربایجان،1971،شماره 1، ص 133

sunda yazdığı doktorluq dissertasiyası 2002-ci ildə Almaniyada kitab şəklində çap olunmuşdur. Bu kitabın Behrəlulumi tərəfindən tərcüməsi İran İslam Respublikası İslam Şurası Məclisi tərəfindən nəşr edilmişdir. Kitabda "Rəbi-Rəşidi" barədə toplanmış və bir araya gətirilmiş məlumatlar və sistematik araşdırmaların nəticələri qeyd olunaraq oxucuların istifadəsinə verilmişdir. Sözü gedən kompleks barədə aparılan araşdırmaların nəticələrini 5 istiqamətdə izah etmək olar. Birincisi odur ki, "Rəbi-Rəşidi" elm və mədəniyyət kompleksi çoxsaylı beynəlxalq funksiyaya malik idi və burada ali tədris fars və ərəb dillərindən başqa, hind, Çin, türk və hətta sanskrit dillərində aparılırdı; ikincisi, üç fenomenin - təhsil, tədqiqat və istehsalın vahid bir məkanda bir araya gəlməsi və sintezi idi; üçüncüsü, özünütəminat keyfiyyətləri idi və kompleks tam şəkildə öz ehtiyaclarını kənardan yardım almadan təmin etmək potensialına malik idi; dördüncüsü, bu kompleksin mütərəqqi təhsil və tədris sisteminə malik olması (Tələbələrin istedad və qabiliyyətlərinin üzə çıxarılması və dəyərləndirilməsi, tədris olunan ixtisasların düzgün bölgüsü, tələbələrin sayının müəyyənləşdirilməsi, eləcə də təhsil müddətinin müəyyən edilməsi); beşincisi, kompleksin konstruktiv layihələndirmə və rifah xüsusiyyətləri idi və burada 35000 ailə üçün su şəbəkəsinə malik olan səhiyyə və yaşayış binalarının, eləcə də dükan, toxuculuq fabrikləri və digər mühüm obyektlərin inşası şəhərsalma baxımından diqqət çəkən əhəmiyyətli məqamlardır. "Rəbi-Rəşidi"nin tibb elminin inkişafında rolu" adlanan beşinci yarımfəsildə kompleksin əhəmiyyətli rolu barədə əvvəlki fəsillərdə qeyd olunan məqamlar bir araya gətirilərək yekunlaşdırılmışdır. "Qazaniyyə" və "Rəbi-Rəşidi" elmi mərkəzlərinin mövcud olması, Təbrizin elmi tərəqqisinin bariz nümunəsidir. Müasir tədris sistemi meydana gəlməzdən öncə, təlim-tərbiyə işi hələ ümumi xarakter daşımırdı. Daha sonralar dini təhsil alanlar üçün mədrəsələr yaranmağa başladı. Təbrizdə də bir neçə belə mədrəsə fəaliyyət göstərirdi. Onlardan bəzilərinin fəaliyyəti indi də davam etməkdədir. Prinsip etibarı ilə monqol əsilli hakimlər təbabət, əczaçılıq və botanika elmlərinə maraq göstərirdilər. Onlar öz saraylarında bir neçə nəfər təbib və botanik saxlayır, səfərə çıxan zaman onların təcrübələrindən faydalanır, gözlənilməz xəstəliklərin müalicəsi və bitkilərin xüsusiyyətlərini və dərmanların xassələrini bilmək üçün onlardan istifadə edirdilər. Məhz buna görə də monqol əsilli hakimlər təbabət elminin inkişafına xüsusi diqqət göstərirdilər. Bu istiqamətdə Xacə Rəşidəddin Fəzlullahın tibb elminin inkişafına dəstəyi, "Rəbi-Rəşidi" akademiyası və ali təhsil ocağının mühüm fəaliyyət istiqamətləri xüsusi əhəmiy-

yət kəsb edən məqamlardır. “Rəbi-Rəşidi” elm və mədəniyyət ocağı insanların rifah səviyyəsinin yüksəldilməsinə, xəstəliklərin dəhşətli nəticələrinin önlənməsində, elmin inkişafında, qədim əlyazma və kitabların qorunub saxlanılmasında, eləcə də yüzlərlə alimin dünyanın müxtəlif ölkələrindən buraya gələrək yerli alimlərlə təcrübə mübadiləsi aparmaqda, müsəlman alimlərinin nailiyyətlərinin dünya səviyyəsində tanınmasında və əhaliyə təmənnasız xidmətlərin göstərilməsində oynadığı rola görə xalq tərəfindən rəğbətlə qarşılanırdı. Bir çox insanlar könüllü olaraq bu mərkəzə təmənnasız yardım göstərirdilər. Bu xeyriyyəçiliyin əsası isə məhz alicənab alim Xacə Rəşidəddin Fəzlullah Həmədani tərəfindən qoyulmuşdu. Müxtəlif əyalətlərdə olan 4 minə qədər imarət, kənd və dəyirmanlar bu mərkəzə bağışlanmışdı. O zamanlar elm və təhsil sistemi o qədər mütərəqqi bir forma almışdı ki, Rəşidəddin hətta kimsəsiz uşaqlar üçün də, müasir dildə desək, internat tipli məktəb yaratmışdı. Bundan başqa keyfiyyətli kağıza olan tələbatın ödənilməsi məqsədilə iki kağız istehsalı müəssisəsi tikilmişdi. Burada bütün dünya elmləri tədris olunurdu. Lakin bu elmlər arasında öncədə qeyd etdiyimiz kimi, təbabət və siyasətə xüsusi önəm verilirdi. Təhsil sistemi və idarəçilik xüsusiyyətlərinə görə “Rəbi-Rəşidi”yə bərabər olan bir elmi mərkəz yox idi. Hətta əvvəllər Xacə Nizamülmülk tərəfindən əsası qoyulmuş sistem və metodlardan daha mütərəqqi idi. Rəşidəddinin tibb sahəsindəki bilikləri və elmi dahi təbiblər – Razi və İbn Sinaya çatmasa da, Təbrizdə Təbabət Mərkəzi və “Rəbi-Rəşidi” kompleksinin inşası istiqamətində dəyərli xidmətləri və təşəbbüsləri, eləcə də bunun davamı olaraq həmin mərkəzdə ali səviyyədə səriştəli təbiblərin yetişdirilməsində əvəzsiz xidmətləri ilə digərlərindən heç də geri qalmırdı. “Rəbi-Rəşidi” kompleksi məhz yeni ideyaların genişləndirilməsi və tətbiqinin bariz nümunəsi idi. Taxıl və buğda anbarlarından tutmuş, kimsəsiz uşaqlar evi, təbiblər və Quran təfsirçiləri üçün xüsusi iş otaqları və bu kimi digər xüsusiyyətlər həyatın müxtəlif səviyyələri barədə dərin düşüncənin əyani sübutudur. Bu elm və mədəniyyət kompleksinin bizə təlimləri bundan ibarətdir ki, yaşadığımız kimi, dünya elmlərini də bilməyimiz zəruridir. Belə ki, bu elmlərdən yararlanmaq bizim üçün həyati bir işdir. Yalnız bu yol ilə cəmiyyəti tərəqqi və yüksəlişə aparmaq olar. “Rəbi-Rəşidi” Azərbaycan və İranın ən böyük və mötəbər elm və mədəniyyət mərkəzi olmuşdur. Bunu bilmək üçün tarixi sənədlərə, əlyazmalara və Fəzlullah Rəşidəddinin əsərlərinə nəzər salsaq kifayətdir.

**Dissertasiyanın mövzusuna aid dərc edilmiş elmi əsərlərin siyahısı**


1. Abbasnejad F. Razi, İbni Sina və Cürcaninin baxışlarına görə ahıllıq yaşlarında idmanın rolu / ADPU-nun «Azərbaycan Dövlət Pedaqoji Universitetinin Xəbərləri» jurnalı, 2011, № 2, s.180-186
2. Abbasnejad F. Xacə Rəşidəddin Fəzlullah və onun Elxanilər hakimiyyəti dövründə həyata keçən islahatlarda rolu / ADPU-nun «Azərbaycan Dövlət Pedaqoji Universitetinin Xəbərləri» jurnalı, 2011, № 4, s.197-202
3. Abbasnejad F. Xacə Fəzlullah Rəşidəddin və onun İslam aləmində yayılmış əsərləri / Bakı Dövlət Universitetinin "Tarix və onun problemləri" jurnalı, 2011, № 4, s. 221-266
4. Mohammadali M. Shoja, Mohammad Reza Rashidi, R. Shane Tubbs, Jalal Etemadi, Feridoon Abbasnejad, Paul S. Agutter "Legacy of Avicenna and evidence-based medicine" / ISI, International Journal of Cardiology, 2011, Vol.150, No.3, p. 239-374
5. Abbasnejad F. Elxanilər dövründə kitab və kitabxanalar / Bakı Dövlət Universitetinin "Tarix və onun problemləri" jurnalı, 2012, № 3, s.11-15
6. Abbasnejad F. The Model of shekh Fazlollah Hamadani in health system managment / İranian, Journal of Medical Ethics and History of Medicine, March 2012, Vol 5, No2, pp. 1-8
7. Samad E.J.Golzari, Kazem Khodadoust Abbasnejad, Farid Alakbarli, Kamyar Ghabili, Ziba Islambulchilar, Feridoon Abbasnejad, Niloufar, Sheikholeslamzadeh "Sleep Paralysis in medieval Presia-the Hidayat of Akhavayni (?-983 AD)" / Neuropsychiatric Disease and Treatment , 2012:8, 229-234
8. Abbasnejad Feridoon, Mohammadali Shoja, Paul S.Agutter, Farid Alakbarli, Marios Loukas, Ghaffar Shokouhi, Majid Khalili, R.Shane Tubbs. "Rabi Rashidi (Rashidi Quarters): a Late thirteen to erly Fourteenth century Middle Eastern Medical School" / ISI, Childs Nerv Syst 2012 Nov; 28(11): 1823-30
9. Abbasnejad Feridoon, Samad E.J.Golzari, Kamyar Ghabili, Saeid Aslanabadi, Reza Rikhtegar, Younes Ranjbar "Obesity-Related Female İnfertility in Medieval Persian Manuscripts" / ISI, OBES SURG (2013) Volume 23, Number 4, 23, 574-576

**Фирудин Аббаснежад**


## Р Е З Ю М Е

## РОЛЬ НАУЧНО-КУЛЬТУРНОГО ЦЕНТРА «РАБИ РАШИДЫ» В МЕДИЦИНСКОЙ НАУКЕ АЗЕРБАЙДЖАНА И ИРАНА

Диссертация посвящена истории роли научно-культурного центра «Раби-Рашиди» в развиии медицинской науки в XIII-XIV в веках в Азербайджане и Иране. Она состоит из введения, трех глав, заключения и списка использованной литературы.

В ведении обосновывается актуальность темы, определяется степень ее разработанности, конкретизируется цель, задачи, теоретико-методологические основы, научная новизна и практическая значимость исследования.

Первая глава под названием «Обзор истории медицинской науки востока в средние века, и в нынешнее время», состоит из трех параграфов. В первом параграфе речь идет об исторических процесах в медицинской науке в средние века, и в нынешнее время. Во втором параграфе речь идет об истории медицины в регионе Ближнего Востока. В третьем параграфе изучаются исторические корни медицинской науки мусульманского мира, а также история медицины Ирана и Востока с первой половины третьего века до середины второго века по лунному колендарю хиджры, период перевода медицинских и других научных произведений в исламском мире, история появления первых медицинских и лечебных центров исламского мира, а также знаменитые медики Ирана, исламского мира и их произведения.

Вторая глава под названием «Развитие медицинской науки на Ближнем Востоке в период Ельханидов» состоит из четырех параграфов. В первом параграфе речь идет о формировании государства Ельханидов, о его политмческом курсе в области науки и культуры. Во втором параграфе речь идет о научно-культурной отмосфере и состоянии здравоохранения в XIII-XIV веках в Тебризе, который являлся столицей государства Ельханидов. В третьем параграфе изучаются проведенные реформы Казан хана-правителя Эльханидов в сфере здравоохранения, науки и культуры. В четвертом параграфе речь идет, о жизни и творчестве Фазлуллаха Рашиди, основателя научно-культурного центра «Раби-Рашиды».

Третья глава под названием «Комплекс «Раби-Рашиды» и его роль в развитии науки и культуры с точки зрения истории» состоит из пяти параграфов. В первом параграфе речь идет о целях создания этого комплекса, во втором о роле Казан хана, Рашидин Фазлуллаха и других в его формировании, в третьем изучается структура и деятельность этого научно-культурного центра, в четвертом речь идет о связи и сотрудничестве этого комплекса с другими научными центрами мира, а в пятом параграфе говорится о роли этого центра в развитии медицинской науки.

В заключении даются общие выводы диссертационной работы.

**Firudin Abbasnejad**


## S U M M A R Y

## THE ROLE OF SCIENTIFIC AND CULTURAL CENTER “RABE- RASHYDY" IN AZERBAIJAN AND IRANIAN MEDICAL SCIENCE

The thesis consists of an introduction, three chapters, conclusion and bibliography.

The jurisdiction of the actuality of the topic, define mined by the degree of elaboration, made concrete goal, objectives, theoretical and methodological bases, scientific novelty and practical importance of the study.

The first chapter, entitled "Review of the history of medical science-tion east of the Middle Ages, and at the present time", consists of three sections. In the first paragraph it is a historical process of medical science in the Middle Ages and at the present time. In the second section we are talking about the history of medicine in the Middle East, and in the third section examines the historical roots of medical science of the Muslim world, as well as the history of medicine in Iran and the East of world from the first half of the third century to the middle of the second century of the AH date.

The second chapter, entitled "Development of medical science in the Middle East in the period Elhanidov" consists of four Para ¬ graphs. In the first section we are talking about the constitution of the state Elhanidov, as well as its scientific and cultural policy. In the second section, it is about a scientific and cultural space, as an example Health of people in Tabriz, in the capital of the state Elhanidov. In the third section, we study the reforms Kazan Khan, ruler Elkhanids, in health, in the field of health, science and culture. In the fourth section, we are talking about life and work Fazlullah Rashidi as the founder of scientific and cultural center "Rabe Rashydy".

Third chapter is the historical role of "Rabe Rashydi" center in the development of science and culture which consists of five sections. In the first section it is about the purpose of establishing of the center, the second section is about the role of Kazan Khan, Fazlullah Rashidi and others in its establishment, in the third section is studied the structure and activities of the scientific and cultural center, in the fourth section of communication and co-operation of the center with other research centers in the world, and in the fifth section discusses about the role of the center in the development of medical science.

In conclusion, given the general conclusions of the thesis.

Formatı: 60x84 $^{1}/_{16}$. F.ç.v. 1,75.
Tiraj 100 nüsxə.

Turxan Nəşriyyat-Poliqrafiya Birliyi

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ИСТОРИИ ИМЕНИ А.БАКИХАНОВА**

*На правах рукописи*

**ФИРУДИН АЛИ оглы АББАСНЕЖАД**

# РОЛЬ НАУЧНО-КУЛЬТУРНОГО ЦЕНТРА «РАБИ-РАШИДЫ» В МЕДИЦИНСКОЙ НАУКЕ АЗЕРБАЙДЖАНА И ИРАНА

**5506.00 – Специализированная история**

# А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени
доктора философии по истории

**БАКУ – 2015**